ID: [redacted]

[redacted]

Azərbaycan Respublikası adından

**Q Ə T N A M Ə**

Bakı şəhəri İş № [redacted] [redacted] 2022-ci il

**BAKI KOMMERSİYA MƏHKƏMƏSİ**

Hakim Pirverdiyev Zaur Rafiq oğlunun sədrliyi,
Məhkəmə iclas katibi Qasımov Fərid Fərzalı oğlunun katibliyi ilə,
İddiaçı [redacted] nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlunun iştirakı ilə,

İddiaçı “[redacted] cavabdeh “[redacted] qarşı ƏDV daxil 497,287.03 (dörd yüz doxsan yeddi min iki yüz səksən yeddi manat, üç qəpik) manat borcun; ödənişin gecikdirilməsinə görə Mülki Məcəllənin 445.7.-ci maddəsinə əsasən hesablanmış 24,864.35 (iyirmi dörd min səkkiz yüz altmış dörd manat, otuz beş qəpik) manat məbləğində gecikmə faizinin mediasiya sessiyasının keçirilməsi ilə bağlı ödənilmiş 400 (dörd yüz manat) manatın; 413 (dörd yüz on üç manat) manat dövlət rüsumunun ümumilikdə cəmi 522,964.38 (beş yüz iyirmi iki min doqquz yüz altmış dörd manat, otuz səkkiz qəpik) manat məbləğində pul vəsaitinin cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə iddia ərizəsinə dair kommersiya işinə açıq məhkəmə iclasında baxaraq, aşağıdakı qətnaməni qəbul etdi:

**TƏSVİRİ HİSSƏ**

İddiaçı cavabdehə qarşı ƏDV daxil 497,287.03 (dörd yüz doxsan yeddi min iki yüz səksən yeddi manat, üç qəpik) manat borcun; ödənişin gecikdirilməsinə görə Mülki Məcəllənin 445.7.-ci maddəsinə əsasən hesablanmış 24,864.35 (iyirmi dörd min səkkiz yüz altmış dörd manat, otuz beş qəpik) manat məbləğində gecikmə faizinin mediasiya sessiyasının keçirilməsi ilə bağlı ödənilmiş 400 (dörd yüz manat) manatın; 413 (dörd yüz on üç manat) manat dövlət rüsumunun ümumilikdə cəmi 522,964.38 (beş yüz iyirmi iki min doqquz yüz altmış dörd manat, otuz səkkiz qəpik) manat məbləğində pul vəsaitinin cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

İddia ərizəsi onunla əsaslandırılmışdır ki, “[redacted] Cəmiyyəti ilə "[redacted] arasında imzalanmış 30 iyun 2020-ci il tarixli 061 saylı alqı-satqı müqaviləsinə əsasən İddiaçı Cavabdehə mallar satmış, Cavabdeh isə malları qəbul etmişdir. İddiaçı müqavilə üzrə

öhdəliklərini tam şəkildə icra edərək malları Cavabdehə təhvil versə də, Cavabdeh müqavilə üzrə öhdəliklərinə əməl etməyərək iddia ərizəsi ilə müraciət olunmuş tarixədək malların dəyərini İddiaçıya ödəməkdən yayınmışdır. Borcunu ödəməsi ilə bağlı Cavabdehə prtenziya göndərilmiş, Cavabdeh isə prtenziyaya cavab verməmişdir. Həmçinin, mübahisənin qarşılıqlı razılıqla həll edilməsi üçün Cavabdehə mediasiyaya dəvət məktubu göndərilsə də, Cavabdeh ilkin mediasiya sessiyasında iştirak etməmişdir. Beləliklə, Cavabdehin yuxarıda qeyd olunan müqavilə çərçivəsində İddiaçıya ƏDV daxil 497,287.03 (dörd yüz doxsan yeddi min iki yüz səksən yeddi manat, üç qəpik) manat borcu yaranmış və Cavabdeh bu borcunu 30 dekabr 2020-ci il tarixdə tərəflər arasında imzalanmış Öhdəliklərin Qarşılıqlı Üzləşdirilməsi Aktı ilə bir daha etiraf etmişdir. Yuxarıda qeyd olunduğu kimi, Cavabdeh tərəfindən İddiaçıya ödəniş olunmamış və bu halda müəyyən olunur ki, Cavabdeh icra etməli olduğu pul öhdəlyinin icrasını gecikdirmişdir. Bununla da Cavabdeh İddiaçını, əldə etməli olduğu gəlirdən faydalanmaq imkanından məhrum etmişdir. Cavabdeh özü isə qaytarmadığı pul vəsaitindən digər məqsədlər üçün istifadə etməklə həmin vəsaitdən faydalanmış və gəlir əldə etmişdir. Cavabdehin fəaliyyətinin kommersiya fəaliyyəti olduğu nəzərə alınsa, onun belə fəaliyyətdən gəlir əldə etməsi və faydalanması təkzib edilməzdir. Buna görə də Cavabdeh İddiaçıya Azərbaycan Respublikasının Mülki Məcəllənin 445.7-ci maddəsinə əsasən faiz ödəməlidir. Mülki Məcəllənin 445.7-ci maddəsinə əsasən borclu gecikdirilmiş vaxt üçün illik beş faiz ödəməyə borcludur. Deməli Cavabdeh ödənişini gecikdirdiyi borcun ümumi dəyərinin illik 5 %-ni, yəni 24864.35 manatı İddiaçıya ödəməlidir

İddiaçının nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlu məhkəmə iclasında iddianı müdafiə edərək iddia ərizəsinin məzmununa uyğun izahat verdi və iddianın təmin edilməsini məhkəmədən xahiş etdi.

Cavabdeh məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilməsinə baxmayaraq, məhkəməyə gəlməməyin səbəbini və ya mümkünsüzlüyünü bildirmədən və bu səbəblərin üzürlü olması barədə sübutlar təqdim etmədən nümayəndəsi məhkəmə iclasına gəlməmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 185.5-ci maddəsinə görə məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdehin gəlməməsinin səbəbləri haqqında məlumat olmadıqda və ya məhkəmə gəlməməyin səbəblərini üzürsüz hesab etdikdə, yaxud məhkəmə cavabdehin icraatı qəsdən yubandırdığını aşkar etdikdə, işə baxmağa haqlıdır. Bu halda qətnamə çəkişmə şəraitində qəbul edilmiş kimi qiymətləndirilərək cavabdehə apellyasiya qaydasında şikayət etmək hüququ verilir.

## ƏSASLANDIRICI HİSSƏ

İş materiallarına aşağıdakı sənədlər əlavə edilmişdir:

30 iyun 2020-ci il tarixli 061 saylı alqı-satqı müqaviləsindən görünür ki, İddiaçı müqavilənin ayrılmaz tərkib hissəsi olan qiymətlərin razılaşması protokolunda və ya qaimə fakturada göstərilən mal-materialları cavabdehə satmagı, cavabdeh isə həmin məhsulları almagı və onun dəyərini 20 iş günü müddətində iddiaçıya ödəməyi öhdələrinə götürmüşlər.

03 dekabr 2020-ci il tarixli malların təhvil-qəbul aktından görünür ki, iddiaçı tərəfindən cavabdehə 497,287.03 manat dəyərində müxtəlif çeşiddə mallar təhvil verilmişdir.

Öhdəliklərin qarşılıqlı üzləşdirməsi aktından görünür ki, cavabdehin iddiaçıya olan borcu 497,287.03 manat təşkil edir.

Məhkəmə iş materiallarını tədqiq edib, iddiaçının nümayəndəsi və vəkilinin izahatını dinləyərək, məhkəmə tədqiqatı zamanı toplanmış sübutların məcmusuna qiymət verib hesab edir ki, aşağıda göstərilənlərə əsasən iddia təmin olunmalıdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 324.4-cü maddəsinə əsasən müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 567-ci maddəsinə əsasən alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

Həmin Məcəllənin 600.1-ci maddəsinə əsasən, alqı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçirməlidir.

Həmin Məcəllənin 600.4-cü maddəsinə əsasən, əşyanı təhvil almış alıcı onu alqı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə, satıcı verilmiş əşyanın ödənilməsini və ya ödənilməmiş malın qaytarılmasını tələb edə bilər.

Məhkəmə tədqiqatı zamanı müəyyən olundu ki, tərəflər arasında 30 iyun 2020-ci il tarixli 061 saylı alqı-satqı müqaviləsi baglanmış, müqaviləyə əsasən İddiaçı Cavabdehə mallar satmış, Cavabdeh isə malları qəbul etmiş, bu barədə malların təhvil-qəbul aktı və öhdəliklərin qarşılıqlı üzləşdirmə aktı tərtib olunmuş və həmin aktlara əsasən cavabdehin iddiaçıya olan borcu 497,287.03 manat müəyyən edilərək aktlar tərəflər tərəfindən imza və möhürlərlə təsdiq edilmişdir.

Məhkəmə qeyd edir ki, alqı-satqı müqaviləsi iki tərəfin alıcının və satıcının bir-biri ilə üst-üstə düşən iradə ifadələrinin əsasında əmələ gəlir və tərəflərin hər ikisi üçün həm hüquq, həm də vəzifə yaradır. Bu müqaviləyə əsasən alıcının əşyanı öz mülkiyyətinə qəbul etmək hüququ və onun qiymətini ödəmək öhdəliyi, satıcı üçün əşyanı alıcının mülkiyyətinə vermək öhdəliyi və onun qiymətinin ödənilməsini tələb etmək hüququ yaranır.

Göründüyü kimi, iddiaçı ilə cavabdeh arasında bağlanmış alqı-satqı müqaviləsindən irəli gələn öhdəlik münasibətləri yaranmış, həmin öhdəliyə görə iddiaçı öhdəliyi yerinə yetirərək, alınan malları cavabdehə vermiş, bunun nəticəsində iddiaçının cavabdehdən müqavilə üzrə müəyyənləşdirilmiş öhdəliyi tələb etmək hüququ yaranmış, cavabdeh isə müqavilə üzrə öhdəlikləri yerinə yetirməmişdir. Borclunun müqavilə üzrə öhdəliyi yerinə yetirməməsinə görə iddiaçı qarşısında müqavilədən irəli gələn öhdəlikləri icra etmək mülki hüquqi məsuliyyəti yaranmışdır. Buna görə də məhkəmə hesab edir ki, cavabdehin iddiaçıya ödəməli olduğu 497,287.03 manat məbləğ iddiaçının xeyrinə tutulmalıdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 24 dekabr 2014-cü il tarixli qərarında kredit müddəti ilə kredit müqaviləsinin qüvvədə olma müddəti ayırd edilməklə qeyd edilmişdir ki, kredit müqaviləsinin qüvvədə olma müddəti belə müqavilənin bağlanma və öhdəliklərin tam icra edilməsi anını, kreditin (əsas məbləğ və faizlər) müddəti isə kreditin alınmasını və müvafiq ödənişlərin müddətini əhatə edir. Hüquqi təbiətinə görə isə kredit müqaviləsinin müddəti tərəflərin hüquq və vəzifələrinin yaranmasının, dəyişdirilməsinin və ona xitam verilməsinin vaxtı tənzimlədiyi halda, kredit müddəti kredit müqaviləsində müəyyənləşdirilmiş öhdəliklərin icra edilməsinin vaxtını tənzimləyir.

Qərarda həmçinin göstərilmişdir ki, kreditorla borclu arasında kredit münasibətləri müqavilə ilə tənzimləndiyindən, kreditin peşəkarlıq qaydasında verilməsi ilə kredit təşkilatları məşğul olduğundan və kreditin predmeti kimi xüsusi likvid aktiv (pul) çıxış

etdiyindən, kreditin vaxtında qaytarılmaması ilə bağlı borclunun gecikdirmə faizlərinin ödənilməsi üzrə öhdəlikləri kredit müqaviləsində nəzərdə tutula bilər.

Göründüyü kimi, Konstitusiya Məhkəməsi Plenumunun qərarında kredit müddəti ilə kredit müqaviləsinin qüvvədə olma müddətini ayırd edilərək, kredit müqaviləsinin qüvvədə olduğu halda belə kredit müddətinin bitməsindən sonra da eyni faiz dərəcəsi ilə gecikdirilmiş faizlərin hesablanması imkanını yalnız müqavilədə bu şəkildə şərtin nəzərdə tutulması ilə şərtləndirilmişdir.

Konstitusiya Məhkəməsi qərarında müqavilədə bu kimi şərtin nəzərdə tutulmadığı halda isə, bu şəkildə faizlərin, buna dair zəruri sübutların təqdim edildiyi halda, yalnız öhdəliklərin icra edilməməsinə görə kreditora vurulmuş zərər qismində tutulmasını mümkün hesab etmişdir.

Belə ki, qərarda göstərilmişdir ki, müqavilənin qüvvədə olma müddətinin bitməsinə baxmayaraq, müqavilə tərəflərin qarşılıqlı hüquqi bağlılığı davam edir və Mülki Məcəllənin 339.4-cü maddəsinə əsasən müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad etmir. Bu isə Mülki Məcəllənin «Öhdəliklərin icra edilməməsi» adlanan 22-ci fəslində və «Öhdəliklərin icra edilməməsi üçün məsuliyyət» adlanan 23-cü fəslində müəyyən edilmiş müddəaların tətbiq edilməsini tələb edir.

İstinad olunmuş qərarda belə nəticəyə gəlinmişdir ki, kreditor kredit müqaviləsindən irəli gələn öhdəliyin icrası üçün nəzərdə tutulmuş müddət bitənədək pul vəsaitindən istifadə haqqının (faizlərin), həmin müddətdən sonrakı dövr üçün isə öhdəliyin icra edilməməsinə görə mülki qanunvericilikdə nəzərdə tutulmuş və hesablanmış faiz formasında zərərin (real zərər və əldən çıxmış faydanın) ödənilməsini tələb edə bilər. Kredit müqaviləsində nəzərdə tutulmuş müddət ərzində öhdəlik icra edilmədikdə və ya icra müddəti çatanadək kreditorun etdiyi xəbərdarlıqdan sonra da borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə, habelə kreditor digər əsaslardan çıxış edərək daha böyük məbləğ tələb edə bilmədikdə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7-ci maddəsinə görə kreditor gecikdirilmiş vaxt üçün illik beş faiz ödənilməsini tələb etmək hüququna malikdir. Bu zaman pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi illik beş faizdən yüksək olduqda, kreditor tərəfindən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7-ci maddəsi ilə əlaqəli şəkildə kreditin ödənişi üzrə gecikdirilmiş vaxt üçün həmin Məcəllənin 449.1-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilən miqdarda faizlər hesablanır. Kreditor vəsaitdən yenidən istifadə edə bilməməsi ilə bağlı ona daha böyük ziyanın vurulduğunu sübut etdikdə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21.2-ci maddəsi və müvafiq hallarda həmin Məcəllənin 449.3-cü maddəsinə əsasən onun zərərin əvəzinin ödənilməsini tələb etməyə dair əlavə hüququ yaranır.

Göstərilən normaların dispozitiv şərtlərindən də göründüyü kimi, gecikdirilmiş vaxt üçün faiz tələb etmə yalnız kredit müqaviləsindən irəli gələn öhdəliyin icra edilməməsi, onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) halında mümkündür.

Şərh olunanlara əsasən məhkəmə hesab edir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7-ci maddəsinə uyğun olaraq iddiaçı cavabdehdən gecikdirilmiş vaxt üçün illik beş faiz ödənilməsini tələb etmək hüququna malik olduğundan hesablanmış 24,864.35 manat faiz cavabdehdən iddiaçının xeyrinə tutulmalıdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.2-ci maddəsinə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Zaur Pirverdiyev
**Məhkəmənin adı:** Bakı Kommersiya Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 015

Həmin Məcəllənin 80-ci maddəsinə əsasən məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 217.3-cü maddəsinə əsasən qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Həmin Məcəllənin 217.4-cü maddəsinə əsasən məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 119.1-ci maddəsinə əsasən məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir.

"Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 36.5-ci maddəsinə əsasən "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"də və mediasiyaya dair qeyd-şərtdə başqa şərt nəzərdə tutulmayıbsa, həmçinin ilkin mediasiya sessiyasında tərəfin üzrsüz səbəbdən iştirak etməməsi halında digər tərəfin bütün mediasiya xərclərini ödədiyi hallar istisna olmaqla, mediasiyaya çəkilən xərclər tərəflər arasında bərabər şəkildə bölüşdürülür. Mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada, həmçinin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməyən tərəf mediasiya ilə bağlı digər tərəfin çəkdiyi bütün mediasiya xərclərini ona ödəməlidir.

Məhkəmə qeyd edir ki, hazırkı iş üzrə məhkəmə xərcləri qeyd olunan normanın tələblərinə uyğun bölüşdürülməlidir.

İddiaçının ödənilmiş 400 manat məbləğində mediasiya xərcini cavabdehdən tələb etdiyini, iş üzrə dövlət rüsumu məbləğinin 813 manat olmasını, iddiaçı tərəfindən 413 manat dövlət rüsumunun ödənildiyini və iddianın təmin edilməsini nəzərə alaraq, məhkəmə hesab edir ki, mediasiya xərcinə görə 400 manat, dövlət rüsumuna görə ödənilmiş 413 manat cavabdehdən tutularaq iddiaçıya ödənilməlidir.

Qeyd olunan xüsusatlara və istinad olunan hüquq normalarına əsasən məhkəmə hesab edir ki, iddia təmin olunmalıdır.

## NƏTİCƏ HİSSƏSİ

Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikasının MPM-nin 216, 220, 227, 358-360 və 362-ci maddələrini rəhbər tutaraq, məhkəmə

## QƏT ETDİ:

İddia təmin edilsin.

Cavabdeh "[redacted] ƏDV daxil 497,287.03 (dörd yüz doxsan yeddi min iki yüz səksən yeddi manat, üç qəpik) manat borc, hesablanmış 24,864.35 (iyirmi dörd min səkkiz yüz altmış dörd manat, otuz beş qəpik) manat məbləğində faiz, mediasiya sessiyasının keçirilməsi ilə bağlı ödənilmiş 400 (dörd yüz manat) manat, 413 (dörd yüz on üç manat) manat dövlət rüsumu ümumilikdə cəmi 522,964.38 (beş yüz iyirmi iki min doqquz yüz altmış dörd manat, otuz səkkiz qəpik) manat məbləğində pul vəsaiti tutularaq İddiaçı [redacted] Cəmiyyətinə ödənilsin.

Qətnamədən onun tərəflərə rəsmi qaydada verildiyi gündən 1 (bir) ay müddətində Bakı Kommersiya Məhkəməsi vasitəsi ilə Bakı Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.

Qətnamədən şikayət verilmədikdə, rəsmi qaydada verildiyi gündən 1 (bir) ay keçdikdən sonra qanuni qüvvəyə minir.

**Hakim Zaur Pirverdiyev**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Zaur Pirverdiyev
**Məhkəmənin adı:** Bakı Kommersiya Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

[redacted]

S/N: 015